# İnqilabın Rəhbəri səhər saatlarında İmam Xomeyni (r.ə) adına hüseyniyədə səs verdi - 18 /Jun/ 2021

İslam İnqilabının Ali Rəhbəri bu gün (cümə) səhər saat 700 – da İmam Xomeyni (r.ə) adına hüseyniyəyə gələrək 110-cu səyyar seçki qutusunun olduğu yerdə on səkkizinci prezident, şəhər və kəndlərin altıncı islami şuraları, xubriqan məclisinin beşinci əlavə və İslami Şura Məclisinin on birinci əlavə seçkilərinə qatılaraq səs verdi.

Həzrət Ayətullah Xamenei səs verdikdən sonra çıxış edərək seçkilər gününün İran xalqının günü olduğunu dedi: “Bu gün meydanın əsl sahibi və səhnə rejissoru xalqdır. Xalq öz səsi ilə ölkənin növbəti illərdəki ümumi və əsas taleyini müüyyən edəcək. Buna görə də bu gün xalqa məxsusdur”.

İslam İnqilabının Rəhbəri əlavə etdi: “Bu gerçəyə əsasən, insanın ağlı hökm edir ki, hər kəs ölkənin bu böyük milli və ümumrespublika sınağında iştirak etsin. Bizim xalqdan seçkilərdə iştirak etməsini təkrar-təkrar istəməyimizin də səbəbi budur. Birinci növbədə xalq özü bu iştirakdan faydalanacaq. İslam Respublikası da beynəlxalq arenada böyük bir imityaz əldə edəcək”.

O, xalqın hər tək-tək nümayəndəsinin verdiyi səsin böyük əhəmiyyət daşıdığını dedi: “Hamınız gəlib seçin və səs verin. Heç kəs deməsin ki, mənim bir səsimlə heç nə olmaz. Çünki xalqın milyonluq səsini təşkil edən məhz bu tək-tək səslərdir”.

Həzrət Ayətullah Xamenei səsverməyə tələsməklə bağlı həmişəki tövsiyəsinə işarə edərək dedi: “Allah və savab niyyəti ilə bu vəzifəni nə qədər tez yerinə yetirsəniz, yaxşıdır”.

O, Həzrət Əli ibn Musa əl-Rzanın (ə) mövlud günlərinin bərəkətindən bu günün İran xalqının bayramı, xeyir və bərəkət səbəbi olacağına ümidvar olduğunu bildirdi: “Seçkil təşkilatçılarına təşəkkür edir və vurğulayıram ki, işinizi bütün ölkədə tam etibarlı şəkildə yerinə yetirin. Siz hörmətli müxbirlər və fotoqrafları da salamlayır və sizə “Allah qüvvət versin” deyirəm”.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**